# Müasir tariximizin əsaslı dönüş nöqtəsi

Azərbaycanın müasir tarixinin bütöv bir mərhələsi böyük dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər hələ sağlığında canlı əfsanəyə çevrilmiş, əməlləri ilə Vətənə və xalqa sədaqət nümunəsi olmuşdur. 1993-cü il iyunun 15-də böyük öndərin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışı Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsindən xilas etdi. Ona görə də həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil olub. Bu qayıdış təkcə Heydər Əliyev ömrünün deyil, həm də bütün tariximizin xüsusi mərhələsi, əsaslı dönüş nöqtəsidir. Dahi şəxsiyyətin ikinci dəfə siyasi rəhbərliyə gəlişi xalqımızın itirilmiş inamını özünə qaytardı, onun sabaha, gələcəyə ümidini artırdı.

Ötən əsrin 60-cı illərindən sonrakı dövrə nəzər salaq. 1969-1982-ci illərdə İttifaq çərçivəsində Azərbaycana uğurla başçılıq edən, 1982-1987-ci illərdə SSRİ kimi nəhəng bir dövlətin rəhbərliyində önəmli yer tutaraq adını dünyanın XX əsr siyasi tarixinə qızıl hərflərlə yazan Heydər Əliyevin respublikamızda hakimiyyətə qayıdışı xalqımızın israrlı tələbi, hətta ozamankı iqtidarın və digər ictimai-siyasi qüvvələrin təkidli xahişləri əsasında baş verib. 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini ikinci dəfə qazanmış müstəqil respublikamız 1993-cü ilin iyununa qədərki müddətdə çoxsaylı dövlət çevrilişləri, böhranlar, xaos və çaxnaşmalarla qarşılaşmışdı. 1993-cü il iyunun əvvəlində böhran son dərəcə kəskinləşmişdi.

Belə vəziyyətdə Azərbaycanın əsl xilaskara ehtiyacı vardı. Artıq hər kəsə aydın idi ki, paytaxtdakıların heç biri —nə iqtidar, nə də o dövrdə hakimiyyətə iddialı olan müxtəlif siyasi qüvvələr ölkəni düşdüyü iflic vəziyyətdən çıxara bilməyəcək. Azərbaycanın yalnız dahi insan Heydər Əliyevin təcrübəsi, müdrikliyi, iradəsi ilə xilas olunacağına heç kim şübhə etmirdi. Böyük siyasətçi Heydər Əliyev son ümidlərin yeganə ünvanı idi. Böyük öndərin ölkənin taleyində oynayacağı rolu da, onun gücü də hamıya məlum idi. Ona görə də Azərbaycan dövlətçiliyinin, 70 ildən sonra qazanılmış müstəqilliyin itirilməsi təhlükəsi yarananda, xalq öz liderini hakimiyyətə gəlməyə, dövlətimizi xilas etməyə dəvət etdi.

Gəncədə baş verən qiyamın yatırılması, ölkənin vətəndaş müharibəsindən və qardaş qırğınından qurtulması ayın 9-da Naxçıvandan Bakıya dəvət edilən Heydər Əliyevin üzərinə təkcə vətəndaş kimi yox, həm də ümummilli vəzifə kimi düşmüşdü. Heç kim risk edib qiyamçı dəstənin qarşısına çıxmaq istəmirdi. Həmin ağır günlərdə bütün ölkənin, o cümlədən iqtidar təmsilçilərinin ümid etdiyi yeganə şəxsiyyət Heydər Əliyev idi. Heydər Əliyevin hakimiyyətə qayıdışı təkcə siyasi tələb deyildi, bu artıq dövrün ictimai tələbatına çevrilmişdi. Hətta iş o yerə çatmışdı ki, AXC-Müsavat təmsilçiləri parlamentin iyunun 15-də keçirilən iclasında Heydər Əliyevdən öz təhlükəsizlikləri üçün təminat istəmişdi. Onları nəinki siyasi, həm də fiziki cəhətdən məhv olmaqdan məhz Heydər Əliyev xilas etdi.

Ümummilli lider iyunun 15-də yekdilliklə spiker postuna seçildi. Bu, Azərbaycanın qurtuluş anı idi və iyunun 15-i tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Böyük şəxsiyyət, təcrübəli rəhbər Milli Məclisin qərarı ilə iyunun 24-dən prezidentin səlahiyyətlərini icra etməklə artıq bütün dövlət standartlarına nəzarət edirdi.

Tarixçilərin, politoloqların indi də, gələcəkdə də o dövrü daim araşdıracağı mühüm məqamlar var ki, bütün bu məsələlərə müstəqil respublikanın 24 ildə keçdiyi inkişaf yoluna nəzər salmaqla müəyyən qədər onlara cavab tapa bilərik. 1993-cü ilin iyunundan bu ağır vəziyyətdən çıxmaq üçün baxmayaraq ki, mən bunu istəmirəm, Ali Sovetin sədri kimi fəaliyyət göstərməyə hazıram. Mən bu yola ancaq xalqın ağır vəziyyətdən çıxmasında müəyyən fəaliyyət göstərmək üçün gedirəm, başqa məqsədim yoxdur" - deyə bəyan edən Heydər Əliyev xalqın müdrikliyinə və böyük potensialına arxalanaraq hamını birləşdirdi və ölkəni təhlükəli vəziyyətdən çıxarmağa nail oldu.

İnsanlar ulu öndər Heydər Əliyevi hakimiyyətə dəvət edərkən ilk növbədə Azərbaycanın xilasını nəzərdə tuturdular. Çünki bu vəzifənin yerinə yetirilməsindən kənarda Azərbaycanın müstəqillik, dövlətçilik ideyasının həyata keçirilməsi mümkün deyildi. Yəni öncə Azərbaycanı məhv olmaqdan xilas etmək, həmin dövr üçün həddindən artıq həm aktual, həm də çətin vəzifələri yerinə yetirmək lazım idi. Ona görə də insanlar böyük öndərin hakimiyyətə gəlməsini arzulayarkən və bu çağırışları ümummilli liderə ünvanlayarkən ilk növbədə Azərbaycanın xilasını nəzərdə tuturdular.

Bəli, xalqımız düzgün seçim etmişdi. Ümummilli lider ilk növbədə siyasi bacarığı və gücü ilə ölkəni vətəndaş müharibəsi təhlükəsindən, separatizmdən, ictimai-siyasi pərakəndəlikdən və anarxiyadan xilas etdi, xalqı yenidən vahid məfkurə ətrafında birləşdirdi. Müstəqil respublikamız yalnız böyük öndərin qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirə bildi. Heydər Əliyevin dərin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi arxada qaldı, ölkəmiz dünyada özünə layiq yer tutdu. Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında dönüş yarandı, sivil və hüquqi dövlət quruculuğu işlərinə başlandı. Milli Ordunun formalaşması, nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiəsi ilə bağlı mühüm addımlar atıldı, atəşkəsə nail olundu.

Müstəqillik illərində Heydər Əliyev rəhbərliyi ilə Azərbaycanın təbii sərvətlərindən, coğrafi strateji mövqeyindən milli mənafelərə uyğun istifadə edilməsinə yönəldilmiş beynəlxalq iqtisadi sazişlərin imzalanması və nəhəng layihələrin həyata keçirilməsi dövrüdür. Azərbaycanda yaranmış ictimai-siyasi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inamdan istifadə edərək 1994-cü ilin 20 sentyabrında iri neft şirkətlərinin iştirakı ilə "Əsrin müqaviləsi" neft sazişi imzalandı.

Qeyd edim ki, 1993-1995-ci illər müasir Azərbaycan tarixinə dövlət müstəqilliyinin qorunub saxlanılması, dünya iqtisadiyyatına inteqrasiya uğrunda mübarizə dövrü kimi yazıldı. Müstəqilliyimiz qorunub möhkəmləndikcə , dövlət təşkilatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət aldı, ölüm hökmü və senzura ləğv edildi. 1995-ci il noyabrın 12-də referendum yolu ilə Azərbaycanın ilk Milli Konstitusiyası qəbul edildi, mənəvi sərvətlərimizə, dilimizə, dinimizə, tarixi irsimizə qayğı dövlət səviyyəsinə qaldırıldı, əlifba islahatı həyata keçirildi. Başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, demokratiya, milli tərəqqi və dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni milli ideologiyanın əsası qoyuldu. Heydər Əliyev erası dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş milyonlarla azərbaycanlını milli məfkurə əsasında birləşdirib onların tarixi vətənlərinə və dövlətə bağlanmasını Azərbaycan diasporunun yaradılmasını və möhkəmləndirilməsini təmin etdi.

Tamamilə bəllidir ki, sonralar ölkənin qanunvericilik orqanı xalqın arzu və istəklərini nəzərə alaraq Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü Milli Qurtuluş Günü kimi dəyərləndirdi. Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti xalqa sədaqətlə xidmət etmək, onun yolunda hər cür məhrumiyyətlərə dözmək timsalına çevrilmişdir. Ümumiyyətlə, 1993-cü ildən 2003-cü ilədək olan on il ərzində onun həyata keçirdiyi nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir.

2003-cü ilin oktyabrından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümummilli liderin siyasi kursunu müasir məzmunda, yeni müstəvidə uğurla davam etdirir. Dövlətimizin başçısı ulu öndərin hakimiyyətə qayıdışından sonra göstərdiyi xidmətlər barədə belə demişdir: "1993-2003-cü illər ərzində Azərbaycanın dövlətçiliyi quruldu. Azərbaycanın inkişaf strategiyası müəyyən olundu. Bütün ölkələrlə xarici əlaqələrimiz qarşılıqlı hörmət və maraqlar əsasında qurulubdur və bu gün də bu, belədir. 1993-cü ildən başlamış və bu günə qədər də davam edən iqtisadi və siyasi islahatlar ölkəmizin dünya birliyinə layiqli üzv kimi daxil edilməsində çox mühüm rol oynadı. Azərbaycanda güclü sosial siyasətin əsasları da məhz o illərdə qoyulubdur. Ona görə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri unudulmazdır, əvəzolunmazdır və onlar tarixi əhəmiyyət kəsb edir".

Bir sözlə, xalqımızın bütün müsbət keyfiyyətlərini öz şəxsiyyətində təcəssüm etdirən Heydər Əliyev millətimizin şərəf və ləyaqət rəmzinə çevrilmişdir.

**Ramiz HÜMMƏTOV,**
**Bakı şəhəri 31 saylı Dövlət Notariat Kontorunun notariusu.**